Azadlıq Radiosu

DÜNYA

# İranda enerji böhranı dərinləşir: Yayda genişmiqyaslı kəsintilər gözlənilir

indicə




Əhvaz İstilik Elektrik Stansiyası

İran rəsmisi xəbərdarlıq edib ki, ölkədə yanacaq çatışmazlığı yay aylarında elektrik stansiyalarında genişmiqyaslı elektrik kəsintilərinə səbəb ola bilər.

İran Elektrik Sənayesi Sindikatının katibi **Mehdi Məsaili** bildirib ki, kənd təsərrüfatı sektoru artıq bir aydan çoxdur ki, gündə beş saat elektrik enerjisiz qalır. Onun sözlərinə görə, müxtəlif sənaye sahələrində də həftədə bir gün elektrik kəsiləcək.

Məsaili iyunun 9-da deyib ki, hökumətin prioriteti əhalinin və sənaye sektorunun elektrik enerjisi ilə təmin edilməsidir. Onun sözlərinə görə, kənd təsərrüfatı sektorunda elektrik enerjisinin məhdudlaşdırılması şəbəkənin sabitliyinin qorunmasına kömək

edib, nəzarət altında kəsintilər yaşayış evləri və müəssisələrdə daha irimiqyaslı kəsintilərin qarşısını almağa imkan verib.

Rəsmi məlumatlara əsasən, İranda elektrik enerjisi istehlakının təxminən 13-14 faizi kənd təsərrüfatı sektorunun, 40 faizi sənayenin, 35 faizi isə məişət sektorunun payına düşür.

Məsaili bildirib ki, elektrik stansiyaları yanacaq çatışmazlığı ilə üzləşib. O xəbərdarlıq edib ki, payız aylarınadək elektrik stansiyalarının qaz təchizatı problemi həll olunmasa, payız və qış mövsümündə ciddi elektrik qıtlığı yarana bilər.

Son vaxtlar hökumət rəsmiləri və enerji ekspertləri İranda qaz çatışmazlığının daha da dərinləşdiyini bildiriblər. Onların dediyinə görə, ölkədə qaz balansındakı kəsir təxminən 100 milyard kubmetrə çatıb.


## Buna da bax:

İranda internet qismən açıldı, qorxu isə qalır: 'Susmağa və sağ qalmağa çalışırıq'

BMT xəbərdarlıq edir: Yaxın Şərq münaqişəsi milyonları aclığa sürükləyir

Tehranda mebelini satan Məsud: 'Hamımız kasıblamışıq'


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur